# Qrup ərizələr və çoxsaylı ərizəçilər

Ərizəçi və ya nümayəndə iki və ya daha çox ərizəçinin müxtəlif hallara əsaslanan şikayətləri ilə bağlı Məhkəməyə müraciət etdiyi halda, hər bir şəxs üçün bütün lazımi məlumatları əks etdirən ayrıcaərizə forması doldurulmalıdır. Hər bir ərizəçininn işinə aid olan sənədlər həmin şəxsin ərizə formasına əlavə olunmalıdır.

Ərizəçilərin sayı beşdən çoxdursa, nümayəndə, ərizə formaları və sənədlərdən əlavə, hər bir ərizəçinin lazımi məlumatlarını əks etdirən cədvəl təqdim etməlidir.

- Table Excel

Nümayəndə hüquqşunasdırsa, bu cədvəl həmçinin elektron formada ərizəyə əlavə olunmalıdır (CD-ROM və ya yaddaş kartında).

Çoxsaylı qrup ərizəçilər və ya ərizələr təqdim olunduğu halda, Katiblik ərizəçilər və ya nümayəndələrdən, təqdim olunan mətnlər və sənədlərin elektron və ya digər formada təqdim olunmasını tələb edə bilər. Ərizələrin effektiv və sürətli baxılmasını təmin etmək üçün Katiblik tərəfindən digər təlimatlar da verilə bilər.

Qrup ərizələr və ya çoxsaylı ərizəçilər tərəfindən verilən ərizələrin təqdim olunmasına dair Katibliyin təlimatlarına əməl olunmaması işlərin Məhkəmə baxışı üçün təqdim edilməməsi ilə nəticələnə bilər (Qayda 47 § 5.2).

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME